# "Ölü Həsən" filmi "TRT 12 Punto" platformasının qalibidir

**Azərbaycan və Türkiyənin ortaq istehsalı olan "Ölü Həsən" bədii filmi nüfuzlu "TRT 12 Punto" film layihələri müsabiqəsinin qaliblərindən biri olub.**




Azərbaycan Kinematoqrafçılar İttifaqından bildirilib ki, layihə Türkiyənin dövlət kanalı TRT tərəfindən 2019-cu ildən etibarən təşkil edilən və ssenari inkişafı ilə beynəlxalq ortaq istehsal sahəsində fəaliyyət göstərən ən böyük platforma olan "TRT 12 Punto"nun qrantını qazanıb.

Ekran əsərinin ssenari müəllifi və rejissoru, eyni zamanda Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi Türkan Hüseyndir. Ssenarinin həmmüəllifi isə İsmayıl İmandır.

Azərbaycan.-2025.- 23 iyul (№ 150).- S.11.